

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 211 (21.363)

29 oktyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 28-də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksini işə salıb.

Dövlətimizin başçısı mərasimdə çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.

## Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu

*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün "Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu" mövzusunda açıq dərs keçilib.*



Muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, Azərbaycanın müstəqil bir dövlət kimi formalaşması, bu dövlətin qarantı olan Azərbaycan Ordusunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1990-1993-cü illərdə – Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə xalqımız qarşısında ən böyük xidmətlərindən biri muxtar respublikanın təhlükəsizliyini təmin etməklə yanaşı, burada Azərbaycanın ilk milli nizami ordu hissələrini yaratmasıdır. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra ordu quruculuğu istiqamətində mühüm qərarlar qəbul edilib, Naxçıvanda Dövlət Müdafiə Komitəsi yaradılıb. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul olunub.

Qeyd olunub ki, ulu öndərimiz Heydər Əliyev hələ Sovet İttifaqı dönəmində yüksək hərbi təhsil almış milli zabit kadrlarının yetişdirilməsinə xüsusi əhəmiyyət verirdi. Məhz dahi şəxsiyyətin ciddi səyləri nəticəsində 1971-ci ildə gəncləri ali hərbi məktəblərə hazırlayan ilk təhsil ocağı olan ixtisaslaşdırılmış hərbi internat məktəbi açılıb. Bir müddət sonra bura Cəmşid Naxçıvanskinin adı verilib. Həmin dövrdə Bakıda iki ali hərbi məktəb – Ali Ümumqoşun Komandirləri və Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik məktəbləri olsa da, burada təhsil alan 300 nəfərdən yalnız 3-5 nəfəri azərbaycanlı idi. Bu ali məktəblərdə təhsil alanlar, əsasən, Rusiya, Belarus, Ukrayna, Gürcüstan və digər ölkələrdən gəlmiş gənclər idi. Xalqımızın böyük oğlu Heydər Əliyevin nüfuzu, siyasi uzaqgörənliyi və qətiyyəti sayəsində bu ədalətsizlik aradan qaldırılıb. Azərbaycanlı gənclərin hərbi-vətənpərvərlik ruhunda yetişmələri üçün orta məktəblərdə ibtidai hərbi hazırlıq fənlərinin tədrisinə başlanılıb. Hər il 800-900 nəfər azərbaycanlı gənc Rusiyanın və digər postsovet ölkələrinin nüfuzlu ali hərbi məktəblərində təhsil almağa göndərilib. Bu gün sovet dövründə yetişmiş yüksək biliyə və təcrübəyə malik həmin kadrlar ordumuzun daha da güclənməsində öz səylərini əsirgəmirlər.

Vurğulanıb ki, ən yeni tariximizin səhifələrinə qızıl hərflərlə yazılmış ordu quruculuğu prosesi ümummilli liderimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra daha geniş miqyasda davam etdirilib. Ulu öndərimiz 1993-cü ildə hakimiyyətə gəldiyi ilk gündən ordu quruculuğu prosesini diqqət mərkəzində saxlayıb. Azərbaycan Ordusunun ilk nizami hərbi birləşmələrinin 1994-cü ilin yanvarından başlayaraq əks-hücuma keçməsi düşmən tərəfdə vahimə yaratmışdı. Silahlı Qüvvələrimizin daha böyük qələbələr qazanacağından qorxan Ermənistan rəhbərliyi 1994-cü il mayın 12-də atəşkəsə razılıq verməyə məcbur oldu. Atəşkəsin əldə olunması ordu quruculuğunda mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaratdı. Dövlətçiliyə sədaqətli, mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların Silahlı Qüvvələrin formalaşmasında iştirakı təmin olundu, döyüş ruhunun yüksəldilməsi və hərbi-vətənpərvərlik hisslərinin aşılanması işi gücləndirildi, maddi-texniki təminat xeyli yaxşılaşdırıldı. Ümummilli liderin adını daşıyan indiki Azərbaycan Ali Hərbi Məktəbi yaradıldı və məktəbdə hərb elminin bilicilərinin yetişdirilməsi işinə xüsusi diqqət yetirildi.

"Ordumuzun gündən-günə daha da güclənməsi üçün bu gün də lazımi addımlar atılır. Təsadüfi deyil ki, 2003-cü ildən bu tərəfə ordumuz öz döyüş qabiliyyətinə, maddi-texniki təminatına və digər göstəricilərinə görə daha da güclənmişdir", – deyən Ramil Orucəliyev qeyd edib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev çıxışlarında dəfələrlə ordumuzun daha da güclənməsi istiqamətində aparılan işlərin bu gün də prioritet məsələ olduğunu bəyan edib. Bu bir faktdır ki, ölkəmizin iqtisadi potensialı artdıqca, Silahlı Qüvvələrimizin daha da güclənməsinə və modernləşdirilməsinə ayrılan xərclər də artırılır.

Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Bununla da, Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaradılıb. Blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasında hərbi təyinatlı tikinti-quruculuq işlərinin geniş vüsət alması, maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin döyüş ruhunun artırılması bu yöndə atılan addımların mühüm tərkib hissəsidir. Motoatıcı briqadadan Əlahiddə Ümumqoşun Ordu səviyyəsinədək böyük inkişaf yolu keçmiş Naxçıvan ordusu Azərbaycan Ordusunun muxtar respublikada gücünü bir daha ortaya qoyur.

Sonra liseyin kursantları Heydər Əliyev Muzeyindəki eksponatlarla tanış olublar, "Heydər Əliyev və Azərbaycan Ordusu" filminə baxıblar.

**Xəbərlər şöbəsi**

## Şərur və Sədərək rayonlarında seçkilərə hazırlıq işləri uğurla yekunlaşıb

*Şərur muxtar respublikamızın abad, hərtərəfli inkişaf etmiş, bütün sahələrdə yüksək nailiyyətlərə imza atmış bölgələrindən biridir. Bu gün rayonun ən ucqar dağ və sərhəd kəndləri belə, müasir yaşayış məntəqəsinə çevrilib. Yaşayış məntəqələrində həyata keçirilən kompleks quruculuq tədbirləri öz həcmini genişləndirdikcə şərurluların rifah halı daha da yüksəlir. Onlar bu əhval-ruhiyyə ilə qarşıdan gələn seçkilərə hazırlaşırlar.*



Şərur şəhərindəki 1 saylı Şərur-Sədərək və 2 saylı Şərur Dairə Seçki komissiyalarında və həmin komissiyaların tərkibində olan bir neçə məntəqədə olduq. 1 saylı Şərur-Sədərək Dairə Seçki Komissiyasının sədri Niyaz Əsgərovla görüşdük. O bildirdi ki, dairənin tərkibində 35 məntəqə yaradılıb və həmin məntəqələr seçkilərə tam hazırdır. Bu məntəqələrdə 38 min 435 seçici səs verəcək. Onlardan 815-i ölkəmizin ictimai-siyasi həyatında ən əhəmiyyətli və yaddaqalan hadisələrdən biri olan seçki prosesində ilk dəfə iştirak edəcək. Seçicilərdən biri muxtar respublikanın ən yaşlı sakinidir. Şərur rayonunun Kürçülü kəndində yaşayan Qonça Hüseynovanın 117 yaşı var.

Onu da öyrəndik ki, 1-1 saylı Heydərabad, 1-22 saylı Yengicə, 1-25 saylı Düdəngə, 1-27 saylı Zeyvə, 1-31 saylı Mahmudkənd seçki məntəqələrində veb-kameralar quraşdırılıb. Bu da seçki prosesinin internet üzərindən izlənməsinə şərait yaradacaq. Komissiya sədri söhbət zamanı bildirdi ki, komissiya seçkilərə start veriləndən bu günə qədər öz işini Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə qurub. Komissiyanın iclaslarında müzakirə olunan məsələlər barəsində müvafiq qərarlar qəbul edilib, seçki komissiyasının üzvləri üçün kurslar, seminar-treninqlər təşkil olunub. Deputatlığa qeydə alınmış namizədlərin seçicilərlə görüşlərinin keçirilməsi üçün qapalı və açıq yerlər ayrılıb, təşviqat kampaniyası qanunauyğun şəkildə aparılıb. Şəxsiyyət vəsiqəsinin vaxtı ötmüş seçicilərin seçkilərdə səs verməsini təmin etmək üçün yaşayış məntəqələrində səyyar xidmətlər təşkil edilib və vətəndaşların bu problemi vaxtında həll olunub.

Dairənin Azərbaycan Respublikasının Milli Məclisinə 1-26 saylı Düdəngə məntəqə seçki komissiyasında olduq. Bu məntəqə Düdəngə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə yerləşir. Müasir tələblərə cavab verən binada yaradılan məntəqə lazım olan avadanlıqlarla təchiz edilib. Həmin binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərlə əlaqədar yaradılmış 8-2 saylı seçki məntəqəsi də eyni şəraitlə təmin olunub. Bu məntəqələrdə 1205 seçici səs verəcək. Onların 40-ı ilk dəfə səs verənlərdir. İlk dəfə səs verəcək seçicilərlə görüşlər təşkil olunub, onlarla maarifləndirici söhbətlər aparılıb.

2 saylı Şərur Dairə Seçki Komissiyasının sədri İbrahim Abbasov söhbət zamanı bildirdi ki, seçkilərin yüksək səviyyədə təşkili üçün muxtar respublikamızda artıq zəngin təcrübə qazanılıb. Son illərdə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri də bir daha göstərib ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda vətəndaşların öz seçki hüquqlarından istifadəsi diqqət mərkəzində saxlanılır. Bu, seçkilərdə iştirak edən xarici müşahidəçilər tərəfindən də təsdiq edilib.

Komissiya sədri onu da bildirdi ki, seçicilər öz iradələrini 53 məntəqədə ifadə edəcəklər. Onların sayı dəqiqləşdirilib. Belə ki, seçkilərdə 41 min 435 nəfər seçici səs verəcək. Onlardan 471-i ilk dəfə səs vermək hüququndan istifadə edəcək. Seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsi üçün bütün tədbirlər görülüb. Bu Dairə Seçki Komissiyası da öz fəaliyyətini qanunvericiliyə uyğun qaydada qurub. Belə ki, dairənin tərkibində olan məntəqələrdə məlumat guşələri hazırlanıb. Seçki gününü və yerini göstərən bildirişlər paylanılıb. Azərbaycan Respublikasının Milli Məclisinə 2-8, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 9-5 saylı Sərxanlı, 2-50 saylı Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 10-4 saylı Şərur dəmiryol vağzalında təşkil edilmiş məntəqələrdə də bunun şahidi olduq. Sərxanlıda 9-u ilk dəfə səs verən olmaqla, 372, Şərur dəmiryol vağzalında isə 1150 seçici səs verəcək. Bu məntəqələrdə də hərtərəfli şəraitin yaradılması seçkilərin uğurla başa çatacağına inam yaradır.

**Muxtar MƏMMƏDOV**

## 29 oktyabr Türkiyə Respublikasının Cümhuriyyət bayramıdır

# Azərbaycan-Türkiyə ikitərəfli münasibətləri strateji tərəfdaşlığa əsaslanır



*92 il bundan əvvəl – 1923-cü ildə çoxəsrlik türk dövlətçiliyinin yeni dövrdə davamı olan Türkiyə Cümhuriyyəti yaranmışdır.*

XX əsrin əvvəllərində süqut ərəfəsində olan zəifləmiş Osmanlı imperiyası Birinci Dünya müharibəsinə qoşuldu. Lakin Antanta dövlətləri tərəfindən məğlubiyyətə uğradıldı. 1918-ci ildə qalib dövlətlərlə Türkiyə arasında Mudros müqaviləsi bağlandı. Bu müqavilə Türkiyəni parçalamaq və onun tarix səhnəsindəki roluna son qoymaq məqsədi daşıyırdı.

Müqavilənin imzalandığı dövrdə Türkiyənin nəzarətindəki ərazilərin bir qismi Antanta tərəfindən tutulmuşdu. İngilis orduları neft yataqları ilə zəngin olan Mosul vilayətini, Antepi, Maraşı, Urfanı, Əskişəhəri işğal etmişdilər. Onlar Anadolu-Bağdad dəmir yoluna, Qara dəniz və Aralıq dənizi limanlarına da nəzarət edirdilər. Fransızlar isə Adana vilayətini ələ keçirmişdilər. İtalyanlar Antalya və Quşadasına daxil olmuş, Konyanı, İspartanı, Bodrumu və Anadolunun digər cənub-qərb rayonlarını işğal etmişdilər. Artıq 1919-cu ilin əvvəllərində Türkiyədə Antanta dövlətlərinə məxsus əsgərlərin sayı 100 min nəfərdən çox idi.

Türkiyəni parçalamaq siyasətinin kökündə dayanan amillərdən biri də burada erməni dövləti yaratmaq idi. Fəallığı artan ermənilər təxribatçı fəaliyyət göstərir, Türkiyənin məhvinə çalışırdılar. Həm daxildəki düşmənlərin ölkəni parçalamaq cəhdləri, həm də 1920-ci ilin avqustunda imzalanmış ədalətsiz Sevr sazişi Türkiyənin dövlətçiliyini və şərəfini təhlükə altında qoymuşdu. Türk xalqı ədalətsizliklə barışmayaraq 1919-cu ildə ölkədə milli azadlıq mübarizəsinə başladı. Mübarizəyə Birinci Dünya müharibəsi döyüşlərində bir sıra hərbi əməliyyatlarda uğur qazanmış general Mustafa Kamal rəhbərlik edirdi. Onun rəhbərliyi ilə qurtuluş savaşı aparan türk ordusu ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Qələbənin qazanılmasında türk xalqı ilə yanaşı, Azərbaycan xalqı da iştirak etmiş, şəhidlər vermiş, türk xalqına qardaşlıq köməyini əsirgəməmişdir.

1923-cü il oktyabrın 29-da müstəqil Türkiyə Respublikasının yaradılması bütün dünyaya bəyan edildi. Atatürkün qurduğu Türkiyə Respublikası onun yolu ilə gedərək bu gün bölgədə və dünyada inkişaf etmiş dövlətə çevrilib. Güclü iqtisadiyyatı, qüdrətli ordusu ilə Türkiyə Respublikası hazırda beynəlxalq aləmdə öz mövqeyi olan ölkələrdən biridir.

Türkiyə və Azərbaycan xalqları daim bir-birinin yanında olmuşlar. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçib, hər iki dövlətin qurucusunun – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Azərbaycanla Türkiyənin strateji tərəfdaşlığı hər iki xalqın eyni kökə mənsub olmasından qaynaqlanır. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanla Türkiyə arasında əlaqələrə daim üstünlük vermiş, bu əlaqələri "bir millətin iki dövləti" səviyyəsinə qaldıraraq demişdir: ***"Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir".***

Əsası ulu öndərimiz tərəfindən qoyulan Türkiyə ilə dostluq və qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkələrimiz regionda və beynəlxalq aləmdə baş verən bütün hadisə və proseslərə münasibətdə eyni mövqedən çıxış edirlər. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük layihələr Azərbaycan və Türkiyənin dünyada söz sahibi olmasına imkan yaradıb.

İki qardaş ölkə arasındakı münasibətlərin inkişafında qarşılıqlı səfərlər mühüm əhəmiyyət kəsb edir. Həmin səfərlər zamanı yüzlərlə dövlətlərarası və hökumətlərarası sənəd imzalanmışdır ki, bu da bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsi üçün hüquqi baza rolunu oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyə Respublikasına 2010-cu ilin 7-9 iyul tarixlərində səfəri ölkələrimiz arasındakı əlaqələrin dinamikası baxımından xeyli məhsuldar olmuş, "Təbii qazın satışı və nəqlinə dair Bəyannamə" və "Təbii qazın satışı və nəqlinə dair Anlaşma Memorandumu" imzalanmışdır. Dövlət başçısının qardaş ölkəyə 2010-cu il 15-16 sentyabr tarixlərində həyata keçirdiyi səfəri isə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, səfər zamanı "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə" imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il yanvarın 15-də Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının dördüncü iclasında, martın 17-də Qarsda Trans-Anadolu qaz boru kəmərinin təməlqoyma mərasimində və aprelin 24-də Çanaqqala zəfərinin 100 illiyi mərasimində iştirak etmək üçün Türkiyə Respublikasına, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə iyunun 12-də birinci Avropa Oyunlarının rəsmi açılış mərasimində iştirak etmək üçün Azərbaycana səfər etmişlər. Bu səfərlər ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişafı, əlaqələrin bütün sahələrdə daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olmuşlar. Bu siyasət müasir dövrdə də davam etdirilir. Qardaş Türkiyə ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindəki ədalətli mövqeyini müdafiə edir, Azərbaycan da, öz növbəsində, Türkiyənin üzləşdiyi problemlərin həllində dəstəyini əsirgəmir. Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***"Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Bu, böyük dəyərdir, böyük nemətdir. Biz bu dəyəri qorumalıyıq və möhkəmləndirməliyik. Bizim dilimiz də, tariximiz də, kökümüz də birdir. Bizim siyasətimizin təməlində xalqlarımızın iradəsi dayanır".***

Azərbaycan-Türkiyə əlaqələrinin dinamikası Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapır. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Bu səfərin nəticələri muxtar respublika üçün uğurlu olmuş, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzünə qarşı çıxaraq beynəlxalq Qars müqaviləsinə əsasən Türkiyə Respublikasının Naxçıvanın muxtariyyətinin qarantı olması barədə bəyanat vermişdir. Bundan başqa, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, 92 kilometrlik İğdır-Naxçıvan yüksək gərginlikli elektrik xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Səfər zamanı Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti, Baş naziri, xarici işlər naziri və Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşlər keçirmişdir. Bu



görüşlərin nəticəsi olaraq 2010-cu il iyulun 17-də Naxçıvan şəhərində Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında nəqliyyat sahəsindəki əlaqələr də inkişaf etdirilir. Bu sahədəki əməkdaşlığın tərkib hissəsi kimi hava nəqliyyatının inkişafına da diqqət artırılır. Hazırda İstanbul-Naxçıvan-İstanbul təyyarə reysi fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycanla Türkiyənin əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: ***"İndi dünya birliyində Türkiyə-Azərbaycan əlaqələrini bir-birindən ayırmaq qeyri-mümkündür. Artıq beynəlxalq təşkilatlarda da bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdirlər ki, onları iqtisadi və siyasi maraqlardan daha çox soykök, milli və ortaq dəyərlər birləşdirir".***

2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında iştirak üçün Naxçıvana gəlməsi, 2012-ci ildə Türkiyə Respublikası xarici işlər nazirinin Naxçıvanda keçirilən Azərbaycan, Türkiyə və İranın xarici işlər nazirlərinin üçtərəfli görüşündə iştirak etməsi qardaş ölkənin Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin tərkib hissəsi kimi ordu quruculuğu sahəsindəki əməkdaşlıq da ilbəil genişləndirilir. Belə ki, ötən il Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir. Həmçinin bu il mayın 12-15-də Azərbaycan-Türkiyə silahlı qüvvələrinin birgə taktiki təlimlərinin bir mərhələsinin Naxçıvanda keçirilməsi də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

***Azərbaycanla Türkiyə arasındakı münasibətlər öz kökünü xalqlarımızın qədim tarixindən götürür. Bu prinsipə əsaslanan ikitərəfli əlaqələrimiz ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq daha da inkişaf etdiriləcək, strateji tərəfdaşlığımız möhkəmlənəcəkdir.***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

## *Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Jandos Asanov:*

# Naxçıvan türkdilli ölkələr üçün mühüm əhəmiyyət daşıyır




***Xəbər verdiyimiz kimi, oktyabrın 27-də Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Naxçıvana səfər edib. O, rəsmi görüşlər keçirib, Naxçıvan şəhəri, onun tarixi abidələri və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olub. Səfər təəssüratları barədə sualımızı cavablandıran Jandos Asanov deyib:***

– Azərbaycanın sürətlə inkişaf edən bu qədim diyarı türkdilli ölkələr üçün mühüm əhəmiyyət daşıyır. Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısı zamanı Türk dünyası üçün önəmli bir təşkilatın – Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında sazişin də məhz Naxçıvanda imzalanması bunu bir daha təsdiq edir. Naxçıvan həm də bu baxımdan türkdilli ölkələr arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynadı. Bu mənada, Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi kimi Naxçıvan Muxtar Respublikasına səfər etməyimdən çox məmnunam.

Naxçıvanda keçirdiyim rəsmi görüşlərdə Türkdilli Ölkələrin Parlament Assambleyası ilə muxtar respublika arasında əlaqələrin inkişafına dair fikir mübadiləsi apardıq. Birgə tədbirlərin keçirilməsinə dair razılıq əldə etdik. Bu, gələcəkdə əməkdaşlığımızın inkişafı baxımından önəmlidir.

Mən səfər çərçivəsində Naxçıvan şəhərindəki Biznes Mərkəzində də oldum. Burada gördüklərim mənim böyük marağıma səbəb oldu. Naxçıvanda istehsal olunan məhsulların çeşidlərinin çoxluğu muxtar respublikanın sürətli iqtisadi inkişafını bir daha sübut edir. Bütün dünyada maliyyə böhranının səngimədiyi bir vaxtda açıq şəkildə görünür ki, bu böhran Naxçıvan Muxtar Respublikasının inkişafına təsir göstərə bilməyib. Muxtar respublikanın iqtisadiyyatı şaxələnib. Mən bunun şahidi oldum. Bu, qürurvericidir.

Naxçıvan çox zəngin mədəni-tarixi irsə malikdir. Bu diyarda olan tarixi abidələr insanı valeh edir. Görünən odur ki, tarixi abidələrin qorunub saxlanılmasına Naxçıvanda xüsusi diqqət yetirilir. Yenidən bərpa olunan, ətrafı abad olan abidələrə böyük maraqla baxdım. Muxtar respublikada ağır bronxial-astma xəstəliklərinin müalicəsi üçün də çox gözəl bir məkan – Duzdağ Fizioterapiya Mərkəzi var. Mən orada da oldum. Naxçıvanın tarixi abidələri, gözəl təbiəti, təmiz havası, təbii müalicə məkanı onun cazibəsini daha da artırır.

Azərbaycanda noyabrın 1-də parlament seçkiləri keçiriləcəkdir. Həmin gün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə də seçkilər olacaq. Əminəm ki, böyük seçki təcrübəsi olan ölkənizdə budəfəki seçkilər də yüksək səviyyədə keçiriləcək.

**Rauf ƏLİYEV**

---

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən əhaliyə göstərilən səyyar xidmətlər muxtar respublika sakinlərinin bir sıra çətinliklərinə son qoyub. Səyyar xidmətlərin göstərilməsi üçün Daxili İşlər Nazirliyinə "Hyundai" markalı avtomobil verilib, bu avtomobil lazımi avadanlıqlarla təchiz edilib.*

# Əhaliyə göstərilən səyyar xidmət davam etdirilir

Ötən müddət ərzində səyyar xidmət avtomobili muxtar respublikanın bir sıra kənd yaşayış məntəqələrində olub, əhaliyə səyyar xidmət göstərib. Bununla bağlı nazirliyin əməkdaşı, polis baş leytenantı Seymur Tağıyevə müraciət etdik. O bildirdi ki, vətəndaşlara ümumvətəndaş pasportunun və şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, eləcə də ov silahlarının qeydiyyata alınması üzrə xidmətlər göstərmək imkanları yaradılıb.

Cari ilin oktyabr ayının 26-da səyyar xidmət avtomobili Culfa rayonunun Yaycı kəndində olub. Burada 63 şəxsiyyət vəsiqəsi üçün vətəndaşlardan sənədlər qəbul edilib, 11 nəfərə sürücülük vəsiqəsi verilib. Əbrəqunus kəndində də əhaliyə səyyar xidmət göstərilib. Bu yaşayış məntəqəsində 13 şəxsiyyət vəsiqəsi üçün müraciət olunub. 5 nəfər sürücülük vəsiqəsi alıb.

Dünən səyyar xidmət avtomobilinin xidmətindən Kırna kəndində də istifadə edilib, 10 şəxsiyyət vəsiqəsi üçün sənədlər qəbul olunub, 9 nəfərə sürücülük vəsiqəsi verilib.

Səyyar xidmət avtomobili bu gün Culfa rayonunun Xanəgah kəndində olacaq.

Məlumat üçün bildirək ki, Culfa rayonundan əvvəl səyyar xidmət avtomobili Ordubad rayonunun Yuxarı Əndəmic, Yuxarı Əylis, Vənənd, Biləv, Aza kəndlərində həmin yaşayış məntəqələrinin və yaxın kəndlərin sakinlərinə xidmət göstərib. Belə ki, 188 nəfərə şəxsiyyət vəsiqəsi hazırlamaq üçün sənədlər qəbul edilib. 18 nəfərə sürücülük vəsiqəsi və bir nəfərə məhkumluq haqqında arayış verilib.

**Xəbərlər şöbəsi**

# Son 20 ilin uğurları:
# Babək rayonu da dinamik inkişaf və möhtəşəm quruculuq məkanına çevrilib




***Ölkəmizin müstəqillik tarixində Naxçıvan Muxtar Respublikasının keçdiyi çətin yol və onun bugünkü inkişaf mənzərəsi artıq çoxları tərəfindən heyrətlə izlənilməkdədir. Blokada şəraitində yaşamasına baxmayaraq, bütün çətinlikləri aşaraq sürətlə müasirliyə qovuşan Naxçıvanın hər guşəsində aparılan quruculuq indi hər kəs üçün bir nümunədir. Son iyirmiillik bir zamanda Naxçıvanda görülən işlərin əzəməti elə bir miqyasdadır ki, indi onun haqqında danışmaq üçün bir az keçmişi də vərəqləmək lazımdır.***

Babək rayonu Naxçıvan Muxtar Respublikasının ərazisi və əhalisinə görə böyük rayonlarından biridir. Bu rayon ümummilli liderimiz Heydər Əliyevin hələ Azərbaycana rəhbərliyinin birinci dövründə respublikanın ucqar rayonlarının iqtisadiyyatını möhkəmləndirmək siyasətinin nəticəsi kimi 1978-ci ildə yaradılmışdır. Sovet hakimiyyətinin ən güclü dövründə bu rayona Azərbaycanın xalq qəhrəmanının adının verilməsi dahi rəhbərin cəsarəti və öz xalqına sonsuz sevgisi nəticəsində mümkün olmuşdu. Beləcə, ötən dövrdə Babək rayonu inkişaf edərək öz göstəriciləri ilə təkcə muxtar respublikamızda deyil, ölkəmiz miqyasında da tanınmağa başlamışdır.

Hazırda 73 minə yaxın əhalisi olan Babək rayonu 36 kənd və bir qəsəbədən ibarətdir. Ərazicə Naxçıvan Muxtar Respublikasının mərkəzində yerləşən rayonun çox əlverişli nəqliyyat imkanları, torpaq və su ehtiyatları vardır. Rayon mərkəzi Babək qəsəbəsi və onun Nehrəm, Cəhri kimi iri kəndləri muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinə ən yaxın olan yaşayış məntəqələri kimi sürətlə inkişaf edirlər. Belə coğrafi imkan rayonun digər yaşayış məntəqələrinin də simasının sürətlə dəyişilməsinə, əhalinin rifahının şəhər standartlarına çatmasına imkan yaradır. Babəkin şəhərə yaxın kəndləri ilə yanaşı, ucqar yaşayış məntəqələri də vardır. Lakin muxtar respublikamızın hər yerində aparılan quruculuq işləri yaxın-ucqar demədən bütün kəndlərimizdə müasir həyat şəraitinə uyğun infrastrukturun yaradılmasına imkan vermişdir. İndi Nehrəmdə, Qahabda, Kərimbəylidə, Şıxmahmudda yaradılmış müasir şəraitin eynisi ucqar dağ kəndləri olan Göynükdə, Nəhəcirdə, Naxışnərgizdə, Yuxarı Buzqovda da vardır. Naxçıvan şəhərindən ayrılan yollar boyunca baxdıqca qəsəbəni xatırladan Babək kəndlərinə daxil olduqda keçmişdə qalanları ancaq kəndin yaşı altmışı ötmüş sakinlərinin xatirələrindən eşitmək olar. Bəli, Babək 20 il əvvəlki rayon deyildir artıq.

Babək iri kənd təsərrüfatı rayonudur. 16 min hektardan çox əkinəyararlı torpaq sahəsi olan rayonda taxılçılıq, kartofçuluq, bostançılıq geniş yayılmışdır. Rayonda xeyli üzüm və meyvə bağları vardır. Təkcə bu il Babəkin bərəkətli torpaqlarından 32 min tondan çox taxıl, 400 tondan çox dən üçün qarğıdalı, 200 ton günəbaxan, 8 min tondan artıq kartof, 20 min tona yaxın tərəvəz və 22 min tona yaxın bostan məhsulları, 5 min tona yaxın meyvə və təqribən, bir o qədər də üzüm istehsal edilmişdir. Rayonda bu qədər həcmdə istehsal olunan kənd təsərrüfatı məhsulları torpaqların gücündən və suvarma potensialından səmərəli istifadə olunması ilə mümkün olmuşdur. Bu baxımdan rayon haqqında aldığımız məlumatlardan biri daha çox diqqəti cəlb edir: hazırda Babək rayonunda ümumi tutumu 133,8 milyon kubmetr olan 11 su anbarı vardır.

2002-ci illə müqayisədə Babək rayonunda sənaye məhsulunun həcmində 36,9 dəfə artım olmuşdur. Hazırda Babək rayonunda fəaliyyətdə olan müxtəlif istehsal müəssisələrinin sayı 23-ə çatmışdır. Rayon ərazisində iri daş məhsulları, kərpic, beton məmulatları və mineral su istehsalı müəssisələri ilə yanaşı, limonad istehsal edən "Savalan-S" kimi digər kiçik sahibkarlıq obyektləri də vardır. Nehrəmdə və Şıxmahmudda gəc istehsalı sahələrini, Cəhri, Sirab və Hacıvardakı un dəyirmanlarını və digər kəndlərdəki istehsal sahələrini də nəzərə alsaq, burada çox sayda babəklinin işlə təmin olunduğunu görmək olar. Şübhəsiz, Babək rayonunun təbii sərvətləri, burada sahibkarlığın və kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı daha çox sayda istehsal sahəsinin yaradılacağına imkan verir.


Babək qəsəbəsi


Cəhri kəndi


Kərimbəyli kəndi


Xal-xal kəndi

Ötən iyirmi il ərzində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən quruculuq Babək rayonunun da simasını tamamilə müasirləşdirən, bu rayonda yaşayan insanların həyat səviyyəsini və buna uyğun olaraq həyat tərzini, mədəni inkişafa baxışlarını kökündən dəyişdirən bir proses olmuşdur. Quruculuq dövrün tələbinə görə insanın vacib tələbatlarının ödənilməsinə, bölgələrdə məskunlaşmanın dərinləşməsinə, məşğulluğun artmasına yönəlmiş ən mühüm tədbirlərdən biridir. Bunun zamanın tələbinə görə qiymətləndirilib həyata keçirilməsi isə təkcə iqtisadi inkişaf imkanlarından deyil, eyni zamanda torpağa bağlılıqdan qaynaqlanan yorulmaz fəaliyyətin nəticəsində mümkün olur. Naxçıvanda aparılan quruculuq təkcə şəhər və kəndlərdə yaradılan müasir sosial infrastruktur, kənd və xidmət mərkəzləri ilə məhdudlaşmır. İyirmi il əvvəl başlamış bu quruculuq insanları daha yaxşı həyat şəraiti qurmağa, ötən əsrin 90-cı illərinin əvvəllərində cəmiyyəti bürümüş ətalət və durğunluğu bir kənara atıb işgüzar, yaradıcı əməyə səsləyən yeni düşüncə quruculuğu oldu həm də. Məhz bu quruculuğun yaratdığı əzmdir ki, əvvəllər inşası illərlə uzanıb gedən bir kənd məktəbi indi cəmisi bir neçə ay müddətində yüksək keyfiyyətlə yekunlaşdırılıb təhvil verilir. Bu quruculuğun insanlarda yaratdığı özünəinamdır ki, bu gün muxtar respublikamızın ən ucqar dağ kəndlərində yaşayan sakinlər özləri üçün ikimərtəbəli müasir villalar tikdirir, kənddə şəhərə xas həyat səviyyəsi standartları yaradırlar. Nəhayət, bu quruculuq bir zamanlar sovet dövrünün qadağaları ilə insanların beyninə hopdurulmuş hər cür "olmaz"ların üstündən birdəfəlik xətt çəkərək, yaxşı yaşamaq üçün lazım olan nə varsa onun yaradılması, istehsal olunması yollarını açıb göstərdi. Naxçıvanda həyata keçirilən bu uzaqgörən düşünülmüş siyasətin nəticəsində sübut olundu ki, əməkdə göstərilən ən böyük qəhrəmanlıq qolları çırmayıb eldə, obada görülən işlərdir. Və ona görə də gələcək nəsillər onun memarını minnətdarlıqla xatırlayacaqlar.

Ötən dövrdə Babəkdə təkcə qəsəbə mərkəzində 20-dən çox sosial obyekt, 3 idman obyekti, 20 kənddə kənd və xidmət mərkəzləri istifadəyə verilmiş, hazırda iki kənd mərkəzinin tikintisi davam etdirilir. Təkcə cari ildə 2 kənd yeni görkəmə qovuşmuşdur. Abad yurd yolundan bəlli olar, – deyiblər. Babək rayonu da rahat yol-nəqliyyat infrastrukturuna malikdir. Son illərdə burada genişhəcmli Hacıvar-Vayxır-Sirab və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları inşa olunmuş, görülmüş kompleks yol infrastrukturu işləri nəticəsində 400 kilometrdən çox yeni yol çəkilmiş, kəndlərdən rayon mərkəzinə və Naxçıvan şəhərinə gediş-gəliş xeyli dərəcədə asanlaşmışdır. Odur ki, hazırda Babək rayonunda əksəriyyəti lüks olmaqla, 4757 minik avtomobili vardır. 2003-cü illə müqayisədə əhalinin şəxsi vəsaitləri hesabına ev tikintisində 10,7 dəfə artım olmuşdur.

İnsanların həyat şəraitinin müasirləşdirilməsi sosial həyat göstəricilərində dərhal əks olunur. Babək rayonunun təhsil, səhiyyə və mədəniyyət göstəriciləri timsalında bu, çox aydın görünür. 1996-cı ildən Babək rayonunda 33 ümumtəhsil, 6 musiqi məktəbi, 1 uşaq bağçası üçün binalar tikilmiş, yaxud yenidən qurulmuşdur. Hazırda rayondakı 36 tədris ocağında oxuyan 7561 şagirdin 97 faizi yeni məktəb binalarında təhsil alır. Təhsildə çəkilən zəhmət isə öz bəhrəsini vermişdir. Təkcə bu il rayon məktəblərinin məzunlarından 262 nəfər ali məktəblərə qəbul olunmuş, onlardan 46 nəfər 500-dən yuxarı bal toplamış, ümumi qəbul göstəricisi 52,6 faiz olmuşdur. Bu, 14 nəfərinin Əməkdar müəllim olduğu 1411 nəfər müəllim-pedaqoqun gənclərin təlim-tərbiyəsində apardığı səmərəli fəaliyyətin nəticəsidir. Təkcə son illərdə rayonun Qoşadizə, Nehrəm, Qahab, Naxışnərgiz, Xal-xal, Şəkərabad kəndlərində istifadəyə verilmiş müasir məktəblər təhsilə göstərilən dövlət qayğısından xəbər verir.

Babəkdə əhalinin sağlamlığının qorunmasına da ciddi fikir verilir. Rayonun səhiyyə müəssisələrində çalışan tanınmış həkim və tibb işçilərinin fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Rayonda bir mərkəzi, iki sahə xəstəxanası, 14 həkim ambulatoriyası, 18 feldşer-mama məntəqəsi vardır. Bu səhiyyə-sağlamlıq ocaqlarında 43 həkim və 228 orta tibb işçisi fəaliyyət göstərir. 1996-cı ildən bəri rayonda 26 səhiyyə obyekti müasir şəraitlə təmin olunmuşdur. Rayonda çox sayda aptek məntəqələri, 6 təcili yardım avtomobili vardır. Babəkli həkimlərdən 2 nəfər Əməkdar həkim kimi fəxri ad daşıyır.

Bu dövrdə istifadəyə verilmiş 3 yeni idman obyekti gənclərin asudə vaxtı və sağlamlığının qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Ötən iyirmi il ərzində Babəkdə mədəniyyətin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Bu dövrdə rayonda 22 mədəniyyət müəssisəsi üçün yeni binalar istifadəyə verilmişdir. Hazırda rayonda fəaliyyət göstərən 1 mərkəzləşdirilmiş kitabxana sistemi, 37 kənd filial kitabxanası, 17 mədəniyyət evi, 13 klub, 2 muzey, 5 uşaq musiqi məktəbi, 1 xalq teatrı insanların sosial-mədəni tələbatlarının ödənilməsində, asudə vaxtın səmərəli təşkilində mühüm rol oynayır. Rayonun mədəniyyət müəssisələrində fəaliyyət göstərən 6 nəfər Əməkdar artist və Əməkdar mədəniyyət işçisi onlara göstərilmiş yüksək qayğını öz səmərəli fəaliyyəti ilə doğrultmağa çalışırlar.


Məmmədrza Dizə kəndi


Qahab kəndi

Babəkin öz firavan günlərinə qovuşması bu gün burada hamını sevindirir. Bundan əvvəl Nehrəm kəndi ilə bağlı yazı işləyərkən kənd ağsaqqalları Tofiq Abutalıbov və Mehralı Cəfərovla tanış olduqda muxtar respublikamızda insanların yaxşı yaşaması üçün yaradılan bu şəraitin nə qədər qiymətli olduğunu bir daha gördüm. Dünyagörmüş bu insanların dünən və bu gündən bəhs edən söhbətlərinə qulaq asmaq çox düşündürücü idi.

**Əli CABBAROV**

# Zəngilanın işğalından 22 il ötür

*Bu gün ölkəmizin dilbər guşələrindən biri olan Zəngilan rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyi gündür. Zəngilan 1993-cü il oktyabrın 29-da mənfur ermənilər və onların havadarları tərəfindən işğala məruz qaldı. Düşmən işğalı altında qalan şəhər və rayonlarımızın hər biri mühüm siyasi, iqtisadi və coğrafi əhəmiyyətə malikdir. Zəngilan rayonunun strateji əhəmiyyəti isə ondan ibarət idi ki, bu rayon həm də Bakı-Culfa-Naxçıvan dəmir yolunun üzərində yerləşirdi. Bu yurd yerimizi işğal edən ermənilər qədim diyarla ana torpağımız arasında məsafəni daha da artırmış oldular. Nəticədə, Zəngilanın işğalı Naxçıvan Muxtar Respublikasının blokadasının "gücləndirilməsində" daha böyük rol oynadı.*

"Zəngilan" toponimini araşdıran tədqiqatçılar qeyd edirlər ki, oğuz-türk boylarından biri olan və tarixdə böyük dövlətlər yaratmış zəngi tayfalarının Azərbaycanla bağlılığı heç kəsə sirr deyil. Adları əski mənbələrdə "sanqi" şəklində qeyd edilmiş zəngilər, əsasən, Qərbi Azərbaycanda – İrəvan mahalı ərazisində yaşayıblar. Zəngibasar bölgəsi, Zəngi çayı, Zəngilər kəndi də bu soyun adını yaşadan toponimlərdəndir. Haqqında bəhs etdiyimiz Zəngilan rayonunun adı da bu qədim oğuz boyunun adından götürülüb və "Zəngilan" şəklində müasir dövrümüzə gəlib çıxıb. Zəngilan rayon kimi 1930-cu ildə yaradılıb. Ərazisi 707 kvadratkilometr, əhalisi isə 35 mindən çox olub. İşğal olunmazdan əvvəl Zəngilanda bir şəhər, bir qəsəbə və 83 kənd var idi.

Təbii ki, torpaqlarımızın bir-birinin ardınca işğal olunmasında erməni işğalçıları ilə bərabər, daxildəki xəyanətkar qüvvələrin də rolu az olmayıb. AXC-Müsavat iqtidarının yarıtmaz əməlləri, ayrı-ayrı qruplara məxsus pərakəndə silahlı dəstələrin xəyanətkar hərəkətləri nəticəsində ermənilər 1992-ci ilin dekabrında Zəngilan rayonunun ətrafında olan əsas strateji məntəqələrimizi ələ keçirdilər. Kiçik qruplarla mübarizə aparan və rayonun könüllülərindən təşkil olunmuş özünümüdafiə dəstələri düşmənin ağır texnika və çoxsaylı canlı qüvvəsinə qarşı mərdliklə vuruşsalar da, qüvvələr arasında qeyri-bərabərlik çox idi. Bu vaxta qədər işğal olunmuş ərazilər Zəngilanın ələ keçirilməsinə geniş imkanlar açmışdı. Eyni zamanda bu rayonun işğalına ermənilər daha çox can atırdılar. Çünki Zəngilan ələ keçiriləndən sonra düşmənin cənub sərhədləri daha da genişlənir, Naxçıvanla Azərbaycanın digər əraziləri arasındakı məsafə daha da çoxalırdı. Buna görə də Ermənistan, demək olar ki, bütün hərbi gücünü bu rayonun işğalına sərf etmişdi. Hücumda təyyarələr də iştirak edir və rayonun mərkəzini bombalayırdılar. Ciddi müqavimətə baxmayaraq, vəziyyət daha da çətinləşirdi. Dörd gün ərzində, əsasən, Mehri, Qafan, Gorus ərazilərindən aramsız hücuma keçməklə qüvvələrimizi bu istiqamətə cəlb edən düşmən beşinci gün – oktyabrın 27-də şəhər Cəbrayıl-Qubadlı istiqamətindən cəbhəni yardı.

Üç istiqamətdə hücuma keçən ermənilər rayonu mühasirəyə alıblar. Mehri istiqamətində hərəkət edən düşmən yüksəklikləri ələ keçirib, Vejnəli və Ağbənd kəndlərini işğal edib. Qafan istiqamətində hərəkət edən ermənilər Bürünlü, Şayıflı, Göyəli kəndlərini tutub rayon mərkəzinə gedən yola çıxıblar. Qubadlının işğal olunmuş ərazilərindən hərəkət edib Saldaş, Çərəli, Mollalı, Qiyaslı, Ulaşlı, Əbilcə, Qarakişi, Tinli, Xocahan, Ağbis kəndlərini və Ağbis yüksəkliklərini ələ keçiriblər. Sığırt və Bartaz yüksəklikləri tutulduqdan sonra Zəngilan faktiki olaraq işğal edilib.

Həmin vaxt əhali tam mühasirədə qalmışdı. Şahidlərin dediklərindən məlum olur ki, burada təsvir edilməsi mümkün olmayan faciəvi bir vəziyyət yaranmışdı: üç tərəfdə qana susayan düşmən, qarşıda isə bol sulu Araz çayı. Əhalinin düşmənin qanlı caynaqlarından xilas olmağa ümidinin tükəndiyi bir vaxtda yenə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev insanların köməyinə çatıb. Ulu öndərin tapşırığına əsasən, Araz çayı üzərində qurulmuş su bəndi bağlanıb və beləliklə, çayın suyu azaldığına görə əhali maneəsiz bir şəkildə İran İslam Respublikasının ərazisinə keçə bilib. Həmin vaxt insanlara ümid verən yaşlıların sözləri də öz təsdiqini tapıb. Onlar deyirmişlər: "Qorxmayın, Allah kərimdir, Heydər Əliyev heç vaxt öz xalqını darda qoymaz. Nəsə bir çıxış yolu tapacaq". Böyük xilaskar bu dəfə də xalqının köməyinə çatıb, 35 minə yaxın əhalini xilas edib, dəhşətli bir soyqırımının qarşısını alıb.



Zəngilanın işğalı nəticəsində, təqribi hesablamalara görə, ölkəmizə həmin dövrün rəqəmləri ilə 1 milyard 390 milyon ABŞ dolları məbləğindən çox ziyan dəyib.

Qeyd etmək lazımdır ki, Zəngilan tarixi-mədəni abidələri ilə tanınmış rayonlarımızdandır. İşğal nəticəsində rayonda 10 mühüm tarixi abidə dağıdılıb. Onlar arasında Məmmədbəyli türbəsi (XIII əsr), Şərifan sərdabəsi (XII əsr), Hacallı dairəvi bürcü (XIV əsr), Yenikənd sərdabəsi (XIV əsr), Bartaz Qız qalası (XIII əsr) və digər əhəmiyyətli abidələr də var idi. Arxeoloji abidələrdən ən böyüyü isə "Şəhri Şərifan" adı ilə tanınan orta əsr şəhərinin xarabalıqlarıdır. İndi xarabalıqları xatırladan təkcə Şəhri Şərifan deyil, bütün Zəngilandır...

Zəngilan təkcə tarixi, coğrafi mövqeyi ilə deyil, həm də torpağı, iqlimi ilə seçilir. Avropada birinci, dünyada ikinci olan Çinar meşəsi məhz Zəngilanda idi. Yaşı yüz illərlə ölçülən bu çinar ağaclarını indi ermənilər kəsərək xarici ölkələrə satırlar. Rayon ərazisində 1974-cü ildə yaradılan Bəsitçay Dövlət Təbiət Qoruğunun bərbad vəziyyətə salındığı barədə məlumatlar da erməni vandalizmini bir daha sübut edir. 2270 metr yüksəkliyində Şükrətaz dağı, çiyin-çiyinə dayanan Əsgülüm, Susənin zirvələrinə qədər uzanıb gedən dağ silsilələri, meşələr qızmar yay günlərində insanların əsl istirahət guşələri idi. Bu dağ və yamacların can dərmanı olan zoğalı, əzgili, qaragiləsi, böyürtkəni, narı, alçası, armudu, fındığı, cəvizi əvəzsiz sərvətimiz idi. Zəngilan rayonu həm də zəngin yeraltı sərvətləri ilə seçilən bölgələrdəndir. Burada qızıl, qara mərmər yataqları, tabaşir çöküntüləri, əhəng xammalı, tikinti daşı və sair var.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı – üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edib. Ötən əsrin 70-ci illərində ümummilli liderimizin səyi ilə Ağ oyuq hidrokompleksinin istifadəyə verilməsi Zəngilanda kənd təsərrüfatının inkişafına böyük təsir göstərib. Yeni suvarma xətlərinin çəkilməsi nəticəsində əkin sahələri genişləndirilib, məhsuldarlıq dəfələrlə artıb. Xüsusilə üzüm sahələri böyük gəlir gətirməyə başlayıb. Arıçılıq, balıqçılıq təsərrüfatları yaradılıb. Tütünçülük, heyvandarlıq, taxılçılıq inkişaf etdirilib. Aqrar sahənin dinamik inkişafı yerli istehsal müəssisələrinin də sayının artmasına imkan verib. Tezliklə istehsal gücü 30 min tona çatan 2 şərab zavodu, konserv zavodu, çörək zavodu inşa edilib. Rayonda 2 toxuculuq kombinatı fəaliyyətə başlayıb, 1 çınqıl, 2 asfalt zavodu, mərmər, əhəng istehsalı sahələri yaradılıb. Həmin dövrdə əhalinin gün-güzəranı xeyli yaxşılaşmışdı. Xüsusən sadə zəhmət adamları həyat, məişət şəraitini müasirləşdirir, yeni evlər, mülklər tikirdilər. 200 çarpayılıq xəstəxana və şəhər poliklinikası, eləcə də iki 50 və iki 25 çarpayılıq kənd xəstəxanaları, 46 feldşer-mama məntəqəsi, 5 kənd ambulatoriyası, 125 çarpayılıq Mincivan Dəmiryol Xəstəxanası əhaliyə tibbi xidmət göstərirdi.

İşğala qədər rayonda 66 məktəb, 300 nəfər kontingenti olan texniki-peşə məktəbi, eləcə də qiyabi orta məktəb, 28 uşaq bağçası fəaliyyət göstərirdi. Rayonun mədəniyyət müəssisələri şəbəkəsinə isə 50 kitabxana, 9 mədəniyyət evi, 39 klub, 7 səyyar avtoklub, 21 kinoqurğu, 3 tarix-diyarşünaslıq muzeyi, 4 musiqi məktəbi daxil idi.

Zəngilanın işğal olunmasından 22 il keçir. Ötən illər ərzində Azərbaycan xeyli inkişaf edərək öz iqtisadiyyatını, ordusunun gücünü daha da artırıb. Bu gün xalqımız işğal altında qalan torpaqlarımızın geri qaytarılacağına tam əmindir və o günü səbirsizliklə gözləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, Azərbaycanda yaradılmış qüdrətli ordu bu inamı daha da artırır. Dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, biz heç vaxt öz ərazi bütövlüyümüzün pozulması faktı ilə barışmayacağıq və istənilən yolla torpaqlarımızı işğaldan azad edəcəyik. İndi keçən hər gün bizi torpaqlarımızın azad olunacağı günə – Böyük Qələbəyə daha da yaxınlaşdırır.

✍ **Səbuhi HƏSƏNOV**

# Müasir gənclik vətənpərvərlik ruhunda tərbiyə olunur

Şərur Rayon Multikulturalizm və Dini Məsələlər üzrə Komissiya Şərur şəhərindəki 1 nömrəli tam orta məktəbdə "Müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda tədbir keçirmişdir. Tədbirdə rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyanın sədri İlham Bədəlov mövzu ilə bağlı məruzə etmişdir. Rayonun ümumtəhsil məktəblərinin bir qrup müəlliminin və yuxarı sinif şagirdlərinin iştirak etdiyi tədbirdə vurğulanmışdır ki, insanın ən ali və əzəli hislərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı el-obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətindən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə vətəni sevmək deyil, vətənpərvərlik həm də vətən naminə çalışmaq, vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərməkdir. Vətənpərvərlik hislərinin böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin bu ruhda tərbiyə olunması həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, təhsil müəssisələrinin ən vacib vəzifələrindən olmuşdur.

İlham Bədəlov diqqətə çatdırmışdır ki, bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaşın və sağlam nəslin yetişdirilməsi dayanır.

Şərur rayonunda da bu məsələ diqqət mərkəzindədir. Rayonda yeni məktəb binalarının, müasir idman və mədəniyyət obyektlərinin istifadəyə verilməsi gənclərə dövlət qayğısının ifadəsidir. Gənclərin yaxşı təhsil alması, asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə həyata keçirilən belə tədbirlər bu sahədə xeyli uğurlar qazanılmasına imkan vermişdir. Onların intellektual səviyyəsinin yüksəldilməsi, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, gənclərin sağlam ruhda böyüməsi üçün bu obyektlərdə hərtərəfli şərait yaradılmışdır. Bu da belə deməyə əsas verir ki, şərurlu gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə ciddi yanaşılır.

Tədbirdə Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyanın üzvlərindən rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov, Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov və başqaları çıxış edərək qarşıda duran vəzifələrdən danışmış, bu sahədə əsas vəzifənin ailələrdə valideynlərin, cəmiyyətdə isə ən şərəfli peşə sahibləri olan müəllimlərin üzərinə düşdüyünü iştirakçıların diqqətinə çatdırmışlar.

**Elman MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Culfa Rayon Tarix - Diyarşünaslıq Muzeyində seminar-ekskursiya keçirilib.*

# Muzey bələdçilərinin etik davranış qaydaları ilə bağlı seminar-ekskursiya keçirilib

Muzeylərdə çalışan bələdçilərin etik davranış qaydaları ilə bağlı maarifləndirici xarakter daşıyan tədbirdə Naxçıvan şəhərində fəaliyyət göstərən muzeylərin əməkdaşları iştirak ediblər. Seminar-ekskursiyanı giriş sözü ilə Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Füzuli Hüseynli açaraq belə seminarların əhəmiyyətindən danışıb.



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva çıxış edib. O, muxtar respublikada muzeylərimizdə qorunan tarixi irsə göstərilən qayğıdan söz açıb. Bildirib ki, bu irsin qorunmasında və təbliğində muzeylərin, muzey bələdçilərinin üzərinə mühüm vəzifələr düşür. Bələdçilər belə mədəniyyət müəssisələrinə üz tutan insanlarla səmimi ünsiyyət qurmağı, muzeylərdə qorunan və nümayiş etdirilən eksponatlar barədə dəqiq və ətraflı məlumat verməyi bacarmalıdırlar. Bunun üçün hazırlanmış metodik tövsiyələr mühüm əhəmiyyət daşıyır və bələdçilər həmin tövsiyələrdən istifadə edərək qarşıya qoyulmuş vəzifənin öhdəsindən layiqincə gələ bilərlər.

Sonra Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasına baxış olub. Muzeyin bələdçisi Nazilə Məmmədova buradakı eksponatlar barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda keçirilən seminar-ekskursiyanın müzakirəsi olub, bələdçi mətninə və bələdçinin etik davranış qaydalarına dair metodik tövsiyələr verilib.

Muzeyin direktoru Gülər Əhmədova belə maarifləndirici tədbirin təşkili üçün muzey kollektivi adından minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**

# Yeniyetmə güləşçimiz gümüş medal qazanıb




Bakı İdman Sarayında Helsinki Olimpiya Oyunlarının gümüş mükafatçısı Rəşid Məmmədbəyovun xatirəsinə həsr olunmuş yeniyetmələr arasında respublika seçim turnirinin final mərhələsi start götürüb. Azərbaycan Güləş Federasiyasının nümayəndəliklərindən seçilmiş 170 sərbəst və 160 yunan-Roma güləşçisinin mübarizə apardığı turnirdə Naxçıvan pəhləvanları da iştirak edirlər. Paytaxtda keçirilən yarışa Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 13 yetirməsi (6 sərbəst, 7 yunan-Roma güləşçisi) yollanıb.

Artıq yeniyetmələrin yarışında (1999-2000-ci illər təvəllüdlü güləşçilərin) güləşçilərimizdən İlqar Məcidov medal qazanmağa müvəffəq olub. O, 46 kiloqram çəki dərəcəsində finala kimi 4 rəqibini məğlub edib və həlledici görüşdə iştirak etmək hüququ qazanıb. Bu yer uğrunda görüşdə idmançımızın rəqibi Qazax güləş məktəbinin yetirməsi Əşrəf Aşurov olub. Onunla görüş idmançımızın turniri ikinci pillədə başa vurması ilə nəticələnib.

İlqar Məcidova təşkilatçılar tərəfindən diplom və medal təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 806